# Sənə yalnız Zəfər yaraşır, qüdrətli Azərbaycan Ordusu!

## *103 yaşın mübarək!*

**Azərbaycan xalqının qürur duyduğu və fəxr etdiyi ünvanlardan biri də Silahlı Qüvvələrimizdir. Zamanında ulu öndər Heydər Əliyevin yaratdığı Azərbaycan Ordusu İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi 18 ildə böyük inkişaf yolu keçərək daha da təkmilləşdirildi. Bu illər ərzində ölkəmizdə ordu quruculuğu prosesi geniş vüsət alaraq mühüm uğurlara imza atdı.**

Məlumdur ki, ordu hər bir millətin qürur mənbəyi, güvənc yeri, ləyaqət rəmzi, şərəfidir. Əgər güclü ordun varsa, qüdrətin var, özünütəsdiq etmə imkanın var. Güclü ordu və güclü dövlət, bunlar hər ikisi birlikdə vəhdət təşkil edir. Çünki hər bir müstəqil dövlət iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, malik olduğu ordunun qüdrəti ilə də ölçülür. Məhz bu baxımdan respublikamızda ordu quruculuğuna xüsusi diqqət ayrılıb. Bunun nəticəsidir ki, çox çətin, keşməkeşli, mürəkkəb bir mərhələdən keçən milli ordu quruculuğu bu gün öz müsbət bəhrəsini verib. Azərbaycan Ordusu öz peşəkar hərbi kadrları, maddi-texniki bazası, müasir texnika və silahları ilə ən güclü ordular sırasındadır. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən Vətən Müharibəsində müzəffər Azərbaycan Ordusu öz sözünü deyərək beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu bir daha təsdiqləmiş oldu.

26 iyun Silahlı Qüvvələr Günü ərəfəsində Azərbaycan Ordusu haqqında yazı hazırlamaq hər bir jurnalist üçün şərəfdir, qürurverici amildir. Böyük qələbənin sevincini yaşadığımız zamanda 103 yaşlı ordumuz haqqında məqalə hazırlamaq böyük xoşbəxtlikdir. Nəhayət, illərdir qələbə əhval-ruhiyyəli məqalə yazmağın arzusu ordumuzun 103-cü ildönümündə reallaşdı.

Azərbaycan Ordusunun əldə etdiyi qələbə hər bir azərbaycanlıya illərdir həsrətində olduğu zəfər sevincini görməyi nəsib etdi. Şuşa zəfərində ordumuzun göstərdiyi qəhrəmanlıq dillərə dastan oldu. Bu zəfər ordumuzun gücünü, qüdrətini, cəsarətini, bacarığını nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyev fevral ayında yerli və xarici jurnalistlər üçün keçirilən mətbuat konfransı zamanı Şuşa zəfərindən və ordumuzun qəhrəmanlıqlarından söz açaraq qeyd etmişdir: "Onlar bizim Şuşaya necə gedib çıxmağımızı hələ də başa düşə bilmirlər. Başa düşə bilmirlər, bir-birindən soruşurlar. Bəzən bu məsələ mətbuata çıxır. Lakin haçansa başa düşəcəklər, bu da Azərbaycanın xüsusi təyinatlılarının və digər xüsusi hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı ilə bağlı ayrıca bir əhvalatdır. Lakin bu gün artıq sirr deyil ki, döyüş əməliyyatlarında sərhəd xidmətinin xüsusi təyinatlı qüvvələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan ordusunun xüsusi qüvvələri iştirak edirdilər. Onlardan hər birinin vahid komandanlıq altında öz vəzifəsi var idi. 44 gün ərzində ərazilərimizi azad etməyimizdə xüsusi təyinatlıların böyük xidməti olub. Ordu korpusları da ərazilərin azad edilməsində və mövqelərin əldə saxlanmasında böyük rol oynayıblar. Cəbhə aviasiyası, pilotsuz uçuş aparatları da, əlbəttə, itkilərin minimuma endirilməsində çox böyük rol oynayıb, ona görə ki, əgər onlar olmasaydı, təlafat qat-qat çox olardı. Sizin tamamilə düzgün olaraq qeyd etdiyiniz kimi onlar təkcə zərbə və kəşfiyyat funksiyalarını deyil, həm də atəşin təshih edilməsi funksiyalarını yerinə yetirirdi. Hətta bəzən göstərilən kadrlarda da görünür ki, hədəf götürülüb, mərmi isə hədəfi vurur. Buna görə də bütün bu əməliyyatların kombinasiyası uğurla nəticələnib. Bir də, əlbəttə, planlaşdırmanın düzgün olması. Sizə deməliyəm ki, planlaşdırma düzgün olmasaydı, bizim üçün çox çətin olardı. Ona görə ki, orada uzunmüddətli istehkamlardan əlavə təbii relyef də çətinlik törədir. Axı, dağa dırmaşmaq, aşağıdan yuxarıya qalxmaq lazımdır. Şuşanın alınması isə, ümumiyyətlə, ayrıca dastandır, bəli, bu, epos kimidir".



Bu gün Azərbaycan xalqı inanılmaz sevincli günlərini yaşayır. Bu sevinci bizlərə müzəffər ordumuzun igid oğulları yaşadır. Qarabağ torpaqlarında başqa bir canlanma var. Hər gün televiziya ekranlarından seyr etdiyimiz yaxşı mənada olan mənzərələr bizdə böyük qürur hissi yaşadır. Şuşanı görməsəm də, televiziya vasitəsilə bu gözəl diyarın dağlarına, qayalarına baxdıqca cəsur oğullarımızın göstərdikləri şücaətlə fəxr etməyə bilmirəm. Mənfur düşmənə göz dağı olan Azərbaycan Ordusunun qazandığı Zəfər hər bir azərbaycanlının qəlbində qürurverici amildir. Ali Baş Komandan



İlham Əliyev "Qarabağ münaqişəsinin sülh yolu ilə həllindən başqa yol yoxdur" deyənlərə rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrətilə cavab verdi. Yol var və biz o yolu hər kəsə nümayiş etdirdik. Bu yol döyüş yoludur, bu yol igid oğullarımızın cəsarəti, qəhrəmanlığı, igidliyidir ki, bütün dünyaya meydan oxudu. Dünya mediasında Azərbaycan Ordusunun qüdrəti, gücü haqqında qeyd olunan fikirlər artıq bizim daha bir qələbəmizin təsdiqi idi. Ən güclü dövlətlərin ordumuz haqqında səsləndirdikləri fikirlər ölkə rəhbərinin bu istiqamətdə illərdir gördüyü tədbirlərin müsbət göstəricisidir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Məhz hərbi potensialımızın təkmilləşdirilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu adını dünya miqyasında güclülər sırasına daxil edə bilib. Müdafiə qüdrəti artan Azərbaycan Ordusunun reytinqinin yüksək səviyyədə olmasını aprel döyüşləri və Günnüt zəfəri təsdiqləmişdi. Vətən Müharibəsində rəşadətli ordumuzun döyüş qabiliyyəti, düşməni məğlubiyyətə uğratması, ən əsası Şuşanın azad olunmasında igid oğullarımızın göstərdikləri qürurverici qəhrəmanlıqları hərbi gücümüzün, qüdrətimizin ən uca zirvəsi oldu. Bu isə ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyevin hərbi sahədə fəaliyyətinin yüksək göstəricisidir. Əldə olunan müsbət nəticələr bir daha təsdiqləyir ki, dövlət başçısı ordumuzun döyüş qabiliyyətinin daha da yüksəldilməsi, maddi-texniki bazasının əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi, eyni zamanda hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıb.

Ölkəmizdə hərbi təhsil sistemində görülən tədbirlər də Azərbaycan Ordusunun peşəkarlığında öz sözünü deyir. Belə ki, son illər xarici ölkələrin hərbi təhsil sistemi ilə tanışlıq, aparılan təcrübə mübadiləsi hərbçilərimizin yüksək səviyyədə hazırlıqlı olduğunu təsdiqləyir.

Ordunun döyüş qabiliyyətinin yüksəldilməsində hərbi təlimlər mühüm rol oynayır ki, bu istiqamətdə Azərbaycan Ordusunun keçirdiyi təlimlər təqdirəlayiqdir. Xatırladaq ki, Azərbaycan Ordusunun hərbi təlimlərində ən müasir silah və texnikalardan istifadə olunur ki, bu da bütün qoşun növlərinin döyüş təcrübəsinin artırılmasında mühüm əhəmiyyət daşıyır. Əldə olunan qələbədə bu bir daha özünü göstərdi.

Azərbaycan Ordusunun hərbi təlimləri Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birgə keçirməsi Qarabağ zəfərində öz sözünü dedi. Bu, Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının mühüm göstəricisi idi və bununla dünyaya bir daha mesaj idi.

Azərbaycan Ordusu ikinci Qarabağ müharibəsində öz əzəmətilə, qüdrətilə dünyaya meydan oxudu. İgid oğullarımız göstərdikləri şücaətlərilə tarix yazdılar. Bu gün hər bir Azərbaycan vətəndaşı öz ordusu ilə fəxr edir. Hamımız Silahlı Qüvvələrimizin Cənubi Qafqazın ən sivil, modern və hazırlıqlı hərbi gücünə çevrilməsinin qürurunu yaşayırıq.

Azərbaycan Ordusunun igidlərinin döyüş meydanında nümayiş etdirdikləri qəhrəmanlıq, cəsurluq, rəşadət, öz qanları və can bahasına qələbəni təmin etmələri hər birimizdə fərəhli anlar yaşatdı. Bu, inanılmaz və böyük xoşbəxtlik idi. Bu, Ali Baş Komandanın dəqiq və düzgün hesablanmış siyasi addımı idi. Güclü ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələrilə təmin edilməsi, həmçinin hərbi qulluqçularımızın peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onlarda vətənpərvərlik tərbiyəsinin düzgün istiqamətləndirilməsi, qanlı döyüşlər zamanı ordu ilə xalqın vəhdətinin təmin edilməsi əslində qələbənin kökündə dayanan böyük həqiqətlərdir. Ordumuzun bu möhtəşəm qələbəsi haqqında hələ çox danışılacaq.

Qürurumuz, Fəxrimiz, Ucalığımız, Əzəmətimiz, Azərbaycan Ordusu. Sənin varlığın, möhtəşəmliyin bizim gücümüzdür. Sənin cəsarətin, dəyanətin, mərdliyin bizim güvənc yerimizdir. Sənin keçdiyin şərəfli yol bizi Qarabağa apardı. Sənin rəşadətin, igidliyin Qarabağı azadlığa qovuşdurdu. Sənin cəsurluğun, qəhrəmanlığın düşməni məğlubiyyətə uğratdı.

Sənin güclü olmağın, dövlətin güclü olmağıdır. Azərbaycana yaşatdığın qələbə sevincinə görə var ol, qüdrətli Azərbaycan Ordusu! Sənə yalnız Zəfər yaraşır!

Zəfərin mübarək!

103 yaşın mübarək!

**Elnurə İSAXAN**